# Dahi şəxsiyyət azərbaycançılığı milli ideologiyaya çevirməklə cəmiyyətin həmrəylik və bütövlüyünə, mənəvi birliyinə nail oldu

> **"Azərbaycan xalqı əsrlər boyu müstəqillik həsrətində idi. Biz müxtəlif dövrlərdə başqa-başqa dövlətlərin tərkibində yaşamışıq. Amma öz milli xüsusiyyətlərimizi itirməmişik. Nəyin hesabına? Onun hesabına ki, öz ana dilimizi, mədəniyyətimizi saxlaya bilmişik, ədəbiyyatımız inkişaf edib, milli ənənələrimiz qorunub saxlanılıbdır. Budur, hər bir xalqın milli identifikasiyasını şərtləndirən əsas məsələlər".**
>
> ***Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham ƏLİYEV***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Layihə çərçivəsində**

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin dəstəyilə "Azərbaycançılıq ideyasının təbliği" istiqaməti üzrə layihə çərçivəsində hazırlanıb.**

Hər bir xalqın, millətin özünəməxsus adət-ənənələri, tarixi, mədəniyyəti, dəyərləri, milli xüsusiyyətləri mövcuddur. Və bu faktorlar xalqın bütövlükdə milli ideologiyasını təşkil edir.

Ölkəmizdə ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlməsilə milli ideologiya - azərbaycançılıq və dövlətçilik ideologiyası bərqərar oldu. Azərbaycançılıq ideyası milli kimliyin, birliyin və vətənə bağlılığın təməl prinsiplərindən biridir. Bu ideya bütün azərbaycanlıların vətən sevgisi, dilinə, mədəniyyətinə və tarixinə bağlılığı üzərində formalaşır. Azərbaycançılıq təkcə etnik mənsubiyyəti deyil, Azərbaycan Respublikasının vətəndaşı olan hər kəsi əhatə edən bir dəyər sistemidir.

Ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illər tariximizə ölkəmizin bütün həyati əhəmiyyətli sahələrində, o cümlədən sosial-iqtisadi, elmi-texniki və mədəni potensialın inkişafı, xalqımızda dövlətçilik və azərbaycançılıq ideyalarının yüksəldilməsi, dövlətimizin gələcək müstəqilliyinin təməlinin qoyulması, onun qorunması və daha da gücləndirilməsi dövrü kimi daxil oldu. Onun bizə miras qoyub getdiyi "Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!" cümləsi xalqımızın həyat devizinə çevrildi.

Azərbaycan müstəqillik əldə etdikdən sonra ulu öndər Heydər Əliyev azərbaycançılıq ideologiyasının elmi-nəzəri bazasının müasir dövrün tələbləri əsasında formalaşmasında mühüm rol oynadı. Ümummilli lider deyirdi: "Milli ideologiyamız tarixi keçmişimizlə, millətimizin adət-ənənələri ilə, xalqımızın, dövlətimizin bu günü və gələcəyi ilə bağlı olmalıdır. Bu ideologiya bütün xalqın, dövlətin mənafeyinə uyğun olmalı, müxtəlif sosial təbəqələrin bir ideya ətrafında birləşməsinə yol açmalıdır".

Ulu öndər azərbaycançılığın və kamil milli ideologiyanın əsas prinsiplərinin dövlətçilik və milli vətənpərvərlikdən ibarət olduğunu dəfələrlə vurğulamışdır. Ümumiyyətlə, min illər boyu tarixi inkişaf prosesində, Azərbaycanın maddi və mənəvi dəyərlər sisteminin təməl dayağı olan azərbaycançılıq məfkurəsi istər dövlətçilik dəyərlərimizin, istərsə də sosial-mədəni həyatımızın bütövlüyünün qorunmasında müstəsna rola sahib olmuşdur.

Ümummilli lider Heydər Əliyev azərbaycançılıq ideologiyasını Azərbaycan dövlətinin ana xətlərindən birinə çevirərkən, ilk növbədə, tarix boyu əldə edilmiş zəngin təcrübədən məharətlə və uzaqgörən bir strateq kimi istifadə etdi. Bu baxımdan Heydər Əliyevin azərbaycançılığı ümummilli ideologiya olaraq irəli sürməsi onun Azərbaycan dövlətçiliyi naminə göstərdiyi tarixi xidmətdir. Məhz azərbaycançılıq Azərbaycana qarşı bir çox istiqamətlərdən yönələn təhdidlərin, ölkəmizi etnik bölücülük əsasında parçalamaq cəhdlərinin qarşısında güclü ideoloji və siyasi sipər oldu. Çünki azərbaycançılıq bizim keçmişimizdən gələn dəyər olaraq vahid Azərbaycanın ideya əsası, ölkədə bütün konfessiya və etnosların həmrəylik və anlaşma içində birgə yaşayışının tarixi təcrübəsidir.



"Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı - Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq", - deyə bəyan edən müdrik dövlət xadimi daim çıxışlarında vurğulayırdı ki, azərbaycançılıq ideologiyası vahid, bölünməz Azərbaycanı qoruyub saxlamaq və möhkəmləndirmək üçün vasitədir. Bununla da Ulu Öndər azərbaycançılıq ideyasına böyük önəm verdiyini diqqətə çatdırırdı. Məhz buna görə də ölkəmizdə azərbaycançılıq ideologiyasının milli həmrəyliyimizin aparıcı amilinə çevrilməsi istiqamətində mühüm işlər görülməyə başlandı. Dahi şəxsiyyət azərbaycançılığı milli ideologiyaya çevirməklə cəmiyyətin həmrəylik və bütövlüyünə, mənəvi birliyinə nail oldu.

Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu azərbaycançılıq ideologiyası dünya azərbaycanlılarını vahid ideya ətrafında birləşdirən ideoloji bünövrə oldu. Azərbaycançılıq ideologiyası dünya azərbaycanlılarının vahid ideya ətrafında birləşməsini şərtləndirən tarixi-siyasi amillərin ən vacibi hesab olunur. Ulu Öndər dünya azərbaycanlılarını birləşdirən əsas amillərin milli mənsubiyyətimiz, tarixi köklərimiz, milli-mənəvi dəyərlərimiz və milli mədəniyyətimizdən ibarət olduğunu nəzərə çatdıraraq deyirdi: "Bizim hamımızı birləşdirən məhz bu amillərdir. Bizim hamımızı birləşdirən, həmrəy edən azərbaycançılıq ideyasıdır, azərbaycançılıqdır. Azərbaycan dövlət müstəqilliyini əldən edəndən sonra azərbaycançılıq aparıcı ideya kimi həm Azərbaycanda, həm də bütün dünyada yaşayan azərbaycanlılar üçün əsas ideya olub. Biz həmişə bu ideya ətrafında birləşməliyik. Azərbaycançılıq - öz milli mənsubiyyətini, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda, onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişafının təmin olunması deməkdir".

Azərbaycançılığı milli ideologiyaya çevirməklə cəmiyyətin həmrəyliyinə, xalqın vahid bir ideya ətrafında mənəvi birliyinə nail olunmasında Prezident İlham Əliyevin xüsusi xidmətləri var. Məhz İlham Əliyev sayəsində milli-mənəvi və bəşəri dəyərlər artıq azərbaycançılıq ideologiyasının özəyini, onun əsas təməl prinsiplərini təşkil etməkdədir.

Prezident İlham Əliyev azərbaycançılıq məfkurəsini dövlətçiliyimizin ideoloji əsası kimi səciyyələndirərək demişdir: "Əsrlər boyu biz millət, xalq olaraq öz dəyərlərimizi qoruyub saxlamışıq. Bu gün bu suala çox diqqət yetirilir. Bu gün çətinliklə üzləşən, qloballaşan dünyada milli dəyərlərimiz dövlətçiliyin əsasını təşkil edir. Dövlətçiliyimiz güclü ideoloji əsaslara söykənir. Azərbaycançılıq ideyası bizim əsas ideoloji dayağımızdır".

Azərbaycançılıq ideyasının gücünü, milli birliyin, həmrəyliyin qüdrətini 44 günlük Vətən müharibəsində hər birimiz çox yaxşı müşahidə etdik. Bunu yalnız Azərbaycan xalqı deyil, bütün dünya ictimaiyyəti gördü. Məhz azərbaycançılıq ideyasının, milli birliyimizin, həmrəyliyimizin qələbəyə nail olmağımızda əsas, həlledici rol oynadığına bütün dünya şahid oldu. Məhz azərbaycançılıq ideologiyası sayəsində biz torpaqlarımızı işğaldan azad edə bildik. 44 günlük Vətən Müharibəsi göstərdi ki, ölkədə xalq-iqtidar, xalq-ordu birliyinin kökündə də azərbaycançılıq ideologiyası dayanır. Və biz xalq olaraq bir yumruq olmağı bacardıq.

Bu gün möhtəşəm ZƏFƏRİMİZ dünyanın harasında, hansı ölkəsində yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlıya qürur hissi yaşatmaqdadır. Çünki hər kəs gördü və başa düşdü ki, bütün dünya azərbaycanlılarının milli iftixar yeri olan bir Vətəni var və bu, Azərbaycandır. Hər kəs əmin oldu ki, bizi məhz azərbaycançılıq ideyası həmin Vətən uğrunda birləşdirir və daha da güclü, qüvvətli, qüdrətli edir.

Biz bir xalq olaraq düşmənin başına endirdiyimiz "dəmir yumruq"la eyni anda "Vahid Vətən", "Vahid Dövlət"və "Vahid Azərbaycan" anlayışı ətrafında sıx birlik yaradaraq hər kəsə gücümüzün qüdrətini bəyan etdik.

***Elnurə İSAXAN***